AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İBTİDAİ SİNİFLƏRDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİRİ

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Səriyyə Səfər qızı Hüseynli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Psixologiya və Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor **İntiqam Hilal oğlu Cəbrayılov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor **Şahin Tağı oğlu Tağıyev**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Xalidə Aydın qızı Həmidova**

pedaqogika üzrə fəlsəfə doktoru **Tahirə Ənvər qızı Quliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: fizika-riyaziyyat elmləri doktoru, professor **Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru **Gülbəniz Vaqif qızı Sultanova**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor **Fərahim Balakişi oğlu Sadıqov**

TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Azərbaycan təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri hərtərəfli mədəni, milli və ümumbəşəri dəyərləri qiymətləndirməyi bacaran, vətənpərvər şəxsiyyətin formalaşdırılmasıdır. Bu işin aktuallığı müasir dövrdə ibtidai siniflərdə həyati və bədii-estetik dəyərlərin yenidən nəzərdən keçirilməsi və təhlili ilə əlaqədardır. Mədəni şəxsiyyətin formalaşdırılması xalqımızın mövcud olduğu vaxtdan indiyə qədər əldə etdiyi və dünya miqyasında tanınan bədii-estetik əsərlərə müraciət etmədən mümkün deyil. Buna görə də ibtidai sinif şagirdlərinin zövqünü, davranışını formalaşdırmaq, cilalamaq və hər hansı bir fəaliyyət prosesində yüksək məharət və bacarıq göstərməsi üçün müxtəlif fənlərin təlimi prosesində və təlimdənkənar vaxtlarda incəsənət nümunələrindən istifadə etmək zəruriyyəti meydana çıxır.

Müasir məktəbin bu gün ən vacib vəzifələrindən biri şagirdin yaradıcılıq qabiliyyətləri və ümumi inkişafı problemidir ki, bunun da təməli ibtidai siniflərdə qoyulur.

Bütün bunların nəzəri təhlilə və praktik cəhətdən əsaslandırılmasına ehtiyac vardır. İlk növbədə yaradıcı qabiliyyət problemini araşdırmaq, həmçinin kiçik məktəblinin ümumi inkişafını nəzərdən keçirmək məqsədəuyğundur. Buna görə də indiki dövrdə şagirdlərin informasiya məkanında düzgün istiqamətlənməsi üçün yaradıcı qabiliyyətlərini maraq və meyillərinə uyğun inkişaf etdirmək mühüm vəzifədir. Bu vəzifənin yerinə yetirilməsində incəsənət nümunələrindən istifadə edilməsinin əhəmiyyəti böyükdür.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun "Təhsilverənlərin hüquq və vəzifələri" adlanan 33-cü maddəsinin 33.3.4. bəndində qeyd olunur ki, "müəllim şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamalıdır".[1]

[1] "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu // – Bakı: Təhsil xəbərləri, – 2009. №6, – s.12-57.

Sözsüz ki, milli və ümumbəşəri dəyərlərə hər bir xalqın mədəniyyəti və incəsənəti də aid edilir. Öz milli mədəniyyətini və incəsənətini bilən insan ümumbəşəri dəyərlərə də hörmətlə yanaşmalı və qiymətləndirməyi bacarmalıdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"nda təhsil sisteminin başlıca vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq. [2]

Məlumdur ki, şagirdlərdə mədəni vərdişləri formalaşdırmadan, mənəviyyatı zənginləşdirmədən bu vəzifələri reallaşdırmaq çətin olar. İncəsənət nümunələrindən məqsədyönlü və sistemli istifadə təlim keyfiyyətini yüksəltməklə yanaşı, həm də şagird şəxsiyyətinin inkişafı üçün də zəmin yaradır.

Problemlə bağlı ölkəmizdə bu sahədə xüsusi xidmətləri olan V.C.Xəlilovun, O.M.Rəcəbovun, F.B.Sadıqovun, K.R.Məmmədovanın və başqalarının dəyərli əsərləri vardır. Həmçinin F.İ.Zeynalov "İbtidai siniflərdə təsviri sənətin digər fənlərlə əlaqəli tədrisi", A.V.Hüseynova "İbtidai sinif musiqi dərslərində şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşması üzrə işin sistemi", F.Ş.Hidayətova "İbtidai siniflərin musiqi dərslərində şagirdlərin vətəndaşlıq tərbiyəsinin imkanları", S.H.Atayev "İbtidai sinif şagirdlərinin estetik tərbiyəsində Azərbaycan dekorativ – tətbiqi sənət materiallarından istifadə yolları", Ş.Ş.Vəliyeva "Kiçik yaşlı məktəblilərin estetik tərbiyəsində təsviri incəsənət nümunələrindən istifadənin imkan və yolları" adlı tədqiqat işləri apararaq ibtidai siniflərdə incəsənət növlərinin istifadəsi üzrə elmi-nəzəri və praktik əhəmiyyətli elmi işlər və tövsiyələr yazmışlar. Göründüyü kimi incəsənət növlərinin təbliği və tətbiqi ilə bağlı tədqiqat işləri aparılsa da,

[2] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan müəllimi, – 2013, 25 oktyabr. №41.

müxtəlif fənlərin tədrisində incəsənət növlərindən sistemli istifadənin təlimin keyfiyyətinə təsiri məsələləri tədqiq olunmamışdır.

Bununla yanaşı, elmi-pedaqoji mənbələrin öyrənilməsi göstərir ki, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə məsələləri kifayət qədər öyrənilmədiyi üçün bu sahədə pedaqoji nəzəriyyələrin inkişaf səviyyəsi ilə praktik tələblər arasında ziddiyyətlər mövcuddur:

– ibtidai siniflərdə incəsənət nümunələrinin səmərəli tətbiqi imkanları haqqında pedaqoji və psixoloji təsəvvürlərin mövcudluğu ilə pedaqoji şərtlərin və şəraitin kifayət qədər işlənməməsi arasında;

– sürətlə ikişaf edən uşaq yaradıcılığı ilə müxtəlif növ incəsənət nümunələrinin şəxsiyyətin inkişafına, həmçinin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri üzrə proqram və tövsiyələrdə problemin əks olunmaması arasında.

Bu gün yaradıcı təfəkkürlü, dünyəvi mədəniyyətə malik şəxsiyyətin formalaşması üçün gənc nəslin tərbiyə və inkişafına yeni bir konseptual yanaşma yaratmağın zəruriliyi meydana çıxmışdır. Buna görə informasiya məkanında şagirdlərin yaradıcılıq potensialının inkişafına töhfə vermək son dərəcə vacibdir.

Beləliklə, təlim prosesi və nəzəriyyə arasındakı ziddiyyətlərin, həmçinin məktəb təcrübəsində mövcud nöqsanların aradan qaldırılması üçün pedaqoji şərtlərin, prinsiplərin aşkar edilməsi məqsədəmüvafiqdir.

İncəsənət bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi olmaqla təsviri fəaliyyəti, musiqini, rəqsi, teatr, kino və onun digər növlərini özündə ehtiva edir. Kiçik yaşlı şagirdlərin incəsənət növlərinə marağını nəzərə alaraq onların təhsilində sözügedən sahələrə diqqət yetirmək, müxtəlif fənlərin tədrisində nümunələrdən istifadə etmək "İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiri" mövzusunun aktuallığını sübut edir və bu istiqamətdə tədqiqat aparmağa zərurət yaradır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə etməklə təlim keyfiyyətinin yüksəldilməsi prosesidir. Tədqiqatın predmeti ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiridir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin

yüksəldilməsinə təsirinin nəzəri cəhətdən əsaslandırılması və bu istiqamətdə təlim prosesinin təşkilinin, strukturunun, məzmununun, təlim üsullarının və metodlarının işlənməsidir.

Bu məqsədə nail olmaq üçün tədqiqatın aşağıdakı *vəzifələri* müəyyənləşdirilmişdir:

1. İncəsənət nümunələri və onlardan istifadənin təlimin keyfiyyətinə təsiri məsələlərini dəqiqləşdirmək.

2. Elmi-pedaqoji və metodik ədəbiyyatda problemin işlənmə səviyyəsini müəyyənləşdirmək.

3. Problem üzrə məktəb təcrübəsini öyrənmək.

4. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiri üzrə sistemli yanaşma modelini işləmək.

5. İbtidai sinif müəllimləri üçün incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri istiqamətində elmi cəhətdən əsaslandırılmış tövsiyələr hazırlamaq.

6. Pedaqoji eksperimenti təşkil etmək.

Tədqiqat metodları. Bu vəzifələrin həll edilməsi üçün aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. *Nəzəri metodlar:* pedaqoji, psixoloji, metodik və problem üzrə yazılmış xüsusi ədəbiyyatın təhlili.

2. *Empirik metodlar:* təlim prosesinin, müəllimlərin və şagirdlərin incəsənət növləri üzrə yaradıcılıq fəaliyyətinin müşahidəsi, anket sorğusu, müsahibə, söhbətlər.

3. Nəticələrin müqayisəsi, ümumiləşdirilməsi və statistik yolla qiymətləndirilməsi.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. İbtidai siniflərdə müxtəlif fənlərin tədrisində incəsənət nümunələrinin tətbiqi təlimin keyfiyyətini yüksəldir, şagirdlərdə emosional zəkanı, yaradıcı düşüncəni və idrak fəaliyyətini inkişaf etdirir. İncəsənət nümunələri şagirdlərin əsas mövzuları daha yaxşı qavramasına kömək edir, gərginliyi aradan qaldırır və özünüifadəni stimullaşdırır.

2. Apatiya və yaxud hiperaktivlik, təcavüzkarlıq, depressiya vəziyyəti olan, ünsiyyətdə çətinlik çəkən şagirdlərə art-terapiya metodlarını tətbiq etməklə onlar sosiallaşır, dostları ilə ünsiyyəti

asanlaşır və fəallaşırlar.

3. Təlimin keyfiyyətinin yüksəldilməsi məqsədilə istifadə edilən incəsənət növlərinin tətbiqi üçün pedaqoji şəraitin yaradılması və müəllim hazırlığına xüsusi önəm verilməsi əsas şərtlərdəndir.

4. İncəsənət nümunələrindən istifadə edərkən hər bir şagirdin hansı zəka növünə aid olduğu (H.Qardner nəzəriyyəsinə görə) nəzərə alınaraq müvafiq tapşırıqların, situasiyaların, oyunların verilməsi məqsədəmüvafiq hesab edilir.

5. İbtidai siniflərdə müxtəlif fənlərin təlimində incəsənət nümunələrindən istifadənin struktur modelinin tətbiq olunması şagirdlərin idrak fəallığının yüksəlməsinə, intellektual, emosional, sosial inkişafına, müstəqil yaradıcı qabiliyyətlərinin formalaşmasına təsir göstərir.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi ideyası ondan ibarətdir ki, incəsənət nümunələri təlim prosesində və təlimdənkənar vaxtlarda şagirdlərin fərdi psixoloji zəka tiplərinə (H.Qardner nəzəriyyəsi əsasında) diferensial şəkildə uyğunlaşdırıldıqda, təlimin koqnitiv strukturunu dəyişdirən və akademik keyfiyyəti birbaşa yüksəldən fundamental pedaqoji mexanizmə çevrilir.

Elmi yeniliyin sırf nəzəri və ideya xarakteri daşıyan tərəfləri bunlardır:

1. İncəsənətin inkişafetdirici potensialı ilə ibtidai sinif şagirdlərinin idrak fəallığı və psixoloji adaptasiyası (pedaqoji art-terapiya vasitəsilə) arasındakı qarşılıqlı əlaqə vahid konseptual sistem halında birləşdirilmişdir.

2. Tədqiqatda bu inteqrasiyanın həyata keçirilməsini təmin edən pedaqoji şərtlər, prinsiplər və meyarlar elmi şəkildə müəyyənləşdirilmiş və tətbiq edilmişdir. Pedaqogika elmində prinsiplərin və meyarların müəyyən edilməsi bütöv bir elmi ideyanın və konseptual modelin mövcudluğunu tələb edir.

3. Təklif etdiyimiz çoxşaxəli struktur modeli təkcə praktik metodları deyil, təlim prosesinin məzmun, metodoloji və nəticə komponentlərinin elmi vəhdətini özündə ehtiva edir.

4. Beləliklə, tədqiqat işimizin elmi yeniliyi müasir ibtidai təhsil modelində bədii-estetik inteqrasiyanın elmi-nəzəri əsaslarını dərindən işləyən və təlim keyfiyyətinə təsir qanunauyğunluqlarını

üzə çıxaran konseptual bir ideyadır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin psixoloji və pedaqoji şərtləri nəzəri-praktik cəhətdən əsaslandırılmış, şagirdlərin bu istiqamətdə bilik və bacarıqlarının formalaşmasının obyektiv və subyektiv amilləri aşkar edilmiş və bununla da pedaqogikanın nəzəriyyəsinə yeni töhfələr verilmişdir.

Tədqiqatın praktik əhəmiyyəti müxtəlif fənlərin tədrisində istifadə olunan incəsənət nümunələrinin tətbiqi üçün metod və üsullar işlənilmiş, ibtidai sinif şagirdlərinin bədii yaradıcılıq fəaliyyətinin inkişafı üzrə materiallar sistemləşdirilmişdir. Tədqiqatın nəticələrindən tədris resurslarının hazırlanmasında, təlim və tərbiyə prosesində istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Tədqiqatın məzmunu əsas elmi ideyaları və alınan nəticələri iddiaçının nəşr etdirdiyi 7 məqalədə (o cümlədən 2 məqalə xaricdə) və 8 konfrans materiallarında (o cümlədən 2 konfrans materialı xaricdə) öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Psixologiya və Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısından və əlavələrdən ibarətdir. "Giriş" hissəsi 7 səhifə, 11 590 işarə, I fəsil hissəsi 49 səhifə, 91 237 işarə, II fəsil hissəsi 24 səhifə, 42 610 işarə, III fəsil hissəsi 50 səhifə, 86 215 işarə, "Nəticə" hissəsi 4 səhifə, 6 015 işarə işarədir. İşin ümumi həsmi 237 667 işarədir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan müddəalar təqdim olunur, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqat metodları şərh olunur, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə probleminin qoyuluşu"** adlanır. Bu fəslin birinci

paraqrafında ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin mahiyyəti və əhəmiyyəti"*** açıqlanır.

Müasir dövrdə kompüter proqramları ilə məşğul olan uşaqları daha çox dünyada baş verən hadisələr, yeniliklər və oyunlar maraqlandırır. Ona görə də onları nə iləsə təəccübləndirmək çətindir. Lakin təcrübə göstərir ki, təlim prosesində və təlimdənkənar vaxtlarda ibtidai sinif şagirdlərinə incəsənət nümunələrindən istifadə etməyi təklif etmək onlarda nəinki təlimə, hətta məktəb həyatına marağı artırır. Ona görə də pedaqoqların bu işin mahiyyətini bilməsi, yaş səviyyəsini və maraqlarını nəzərə alaraq incəsənət nümunələrindən təlim və təlimdənkənar vaxtlarda istifadə etməsi məqsədəuyğun sayılır. Hər bir pedaqoqun bu sahədə uşaqlara təqdim edəcəyi dünyagörüşü vardır. Şagirdlərdə müşahidə etdikləri və pedaqoqdan əxz etdikləri incəsənət nümunələri əsasında təsəvvürlər, biliklər və kompetensiyalar formalaşır. Lakin şagirdlərdə bu kompetensiyaları formalaşdırmaq üçün pedaqoqların şərait yaratması, seçim etməsi və gördüyü işdən zövq almağı öyrətməsi gərgin əmək tələb edir. Müxtəlif fənlərin tədrisində (Azərbaycan dili, həyat bilgisi, ingilis dili, texnologiya, riyaziyyat, fiziki tərbiyə) incəsənət nümunələrindən istifadə üzrə müxtəlif fəaliyyətlərin həyata keçirilməsi kiçik yaşlı şagirdlərin mədəni dəyərlərin formalaşması üzrə sosiallaşmasına müsbət təsir göstərir, idrak fəallığını artırır, ən əsası isə "incəsənət" anlayışının mahiyyətini onlara çatdırır.

İbtidai siniflərdə apardığımız tədqiqat işi şagirdlərə məhz məhdud və adi anlamda mədəniyyət anlayışının mahiyyətini açmağa və müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən istifadə etməklə təlimin keyfiyyətini yüksəltməyə yönəlmişdir.

"İncəsənətin psixoloji təsirinin dəyəri daxili tarazlığı pozan gərginliyi aradan qaldırmaq qabiliyyətinin, qiymətləndirmə yolu ilə real hadisələrə reaksiyanı sabitləşdirmək bacarığının inkişafına, insanı xoşagəlməz vəziyyətə gətirib çıxara biləcək mənfi hisslərdən azad olmasına kömək edir. İncəsənət bu duyğuları yaradıcı bir impulsa, iradi səylərə çevirə bilir. Beləliklə, incəsənət psixoterapevtik təsir göstərir ki, bu da məktəblilər, xüsusən də yeniyetmələr üçün xüsusilə vacibdir". Bu fikirlər məhz bizim qarşıya qoyduğumuz məqsəd və vəzifələri ifadə edir. Şagirdlərin milli və dünyəvi

dəyərləri mənimsəməsi, bu sahədə kompetensiyaların formalaşdırılması müasir dövrümüzün tələbidir.

Məlumdur ki, ibtidai təhsil pilləsində uşaqlar təlimə fiziki və psixoloji baxımdan kifayət qədər hazır olmurlar. Zəruri hazırlıq səviyyəsi tədricən formalaşır, belə ki, təlim prosesi aparıcı fəaliyyətə çevrilir. Bu prosesdə kiçik yaşlı məktəblilərin təlim fəaliyyətinə motivasiyası formalaşır. Lakin bunu yalnız "Azərbaycan dili", "Riyaziyyat", "İnformatika", "Həyat bilgisi" və digər dərslərdə yaratmaq uğurlu nəticə vermir. Bu fənlərin tədrisində musiqi, təsviri incəsənət və incəsənətin başqa növlərindən istifadə edilməsi uşaqlarda yorğunluq, diqqətin yayınmasının qarşısını alır, onlarda ruh yüksəkliyi, məktəb həyatına maraq oyadır, idrak fəallığı, fərdi qabiliyyətləri, yaradıcılığı formalaşdırır. Şagirdlər öz yaşıdları və müəllimlərlə daha yaxından ünsiyyət edə bilirlər.

I fəslin ikinci paraqrafı ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin pedaqoji və psixoloji əsasları"*** adlanır. Respublikamızın görkəmli alimlərindən akademik M.M.Mehdizadə, Ə.Ş.Həşimov, V.C.Xəlilov estetik tərbiyənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri, imkanları, vasitələri, həyata keçirilməsi yolları ilə bağlı çox dəyərli fikirlər söyləmişlər.

İbtidai siniflərdə şagirdlərin təlimə hazırlanmasının psixoloji tərəflərini araşdıran Ə.S.Bayramov və Ə.Ə.Əlizadə qeyd etmişlər ki, *axırıncı iyirmi ildə ibtidai siniflərdə proqramın mənimsənilməsində çətinlik çəkən uşaqların sayı çoxalıb. Səbəb çoxdur, lakin bunlardan ən əsası psixi inkişafın zəifləməsidir. Valideynlər bu səbəbdən repetitorlara, psixoterapevtlərə müraciət edirlər. Aparılan təhlil göstərir ki, müasir uşaqlar 50-60-cı illərin uşaqlarından 2-3 dəfə az hərəkət edirlər. Uşaqların psixi inkişafının geri qalmasının ən əsas səbəbi, məhz hərəki aktivliyin lazımi səviyyədə olmamasındadır.*

Müşahidələr göstərir ki, bu məsələdə də məhz incəsənət nümunələrindən istifadə etmək şagirdlərin təlim prosesinə adaptasiya olunmasına kömək edir. Bunlar fəallığı artırmaqla yanaşı, yorğunluğu və psixoloji baryeri aradan qaldırır, biliklər verir. Azərbaycan və dünya musiqisi, rəssamlığı, folklor nümunələri haqqında məlumatlar verməklə təlim prosesi zənginləşir və şagirdlərin məktəb həyatına marağını artırır.

Problem üzrə pedaqoji və psixoloji ədəbiyyatı araşdırarkən H.Qardnerin nəzəriyyəsi diqqətimizi cəlb etdi. Tədqiqat prosesində onun nəzəriyyəsi ön plana çəkildi. İntellektin çoxşaxəli nəzəriyyəsi birinci dəfə 1983-cü ildə amerikalı H.Qardnerin "Əqlin strukturu: intellektin çoxşaxəli nəzəriyyəsi" kitabında şərh edilmişdir. Onun fikrincə, insan yalnız ümumi intellektə deyil, bununla yanaşı müstəqil qabiliyyətlərə malikdir. "V*erbal-linqvistik, musiqi-ritmik zəka, məntiqi və riyazi zəka, vizual-məkan zəkası, motor-hərəki zəka, şəxsiyyətlərarası zəka, şəxsiyyətdaxili zəka və təbiətşünas zəka intellektin meyarlarıdır.* Tədqiqat prosrsində H.Qardner nəzəriyyəsinə istinadən hər bir şagirdin hansı incəsənət növünə meyilli olması nəzərə alındı və ona müvafiq taşırıqlar verilməsi ön plana çəkildi.

"Beləliklə, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə etməyin psixoloji və pedaqoji baxımdan təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsiri aşağıdakı amillərlə izah olunur:

a) hər bir şagirdin hansı incəsənət növünə marağının aşkar edilməsi;

b) yaradıcı fəaliyyətə meyil və maraqların dəstəklənməsi;

c) təlim prosesində incəsənət nümunələrinin fənlərin mövzuları ilə əlaqəsinin təmin edilməsi;

ç) estetik hisslərin və qabiliyyətlərin inkişaf etdirilməsi;

d) mövzulara müvafiq sənət əsərlərinin təhlil və təqdim edilməsi".

I fəslin üçüncü paraqrafı ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə üzrə proqram, dərslik və elmi-metodik ədəbiyyatın təhlili"***nə həsr edilmişdir.

Bu gün ibtidai siniflərdə tətbiq edilən təlim texnologiyaları müxtəlifdir - işgüzar oyunlar, layihə metodları, rollu oyunlar və s. Müəllim bilik mənbəyindən daha çox dərketmə prosesinin təşkilatçısı qismində iştirak edir. Pedaqoji fəaliyyətdə onun əsas aləti dərslikdir. Dərslikdə şagirdlərin mənimsəməsi üçün materiallar, fəaliyyət üsulları göstərilir ki, bu prosesdə də onlar bilik əldə etməkdə müstəqillik nümayiş etdirməyə səy göstərir, bacarıqlarını yaradıcı tətbiq etmək üçün yollar axtarırlar.

"Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Fənn kurikulumları (I-IV siniflər)" təsviri incəsənət və musiqi

kurikulumlarının məzmunu verilmişdir.[3] Burada təsviri incəsənət və musiqinin xarakterik cəhətləri açıqlanmış, fənnin əhəmiyyəti, məqsədi və vəzifələri göstərilmişdir.

Düşünürük ki, estetik tərbiyənin inkişafını qəliz sözlərlə deyil, şagirdlərin anlamına uyğun təsviri materiallarla, gözəl milli və dünya musiqisi ilə, həmçinin onların öz əlləri ilə düzəltdikləri fiqurlarla, parçalara vurduqları naxışlarla təmin etmək olar.

İbtidai siniflər üçün məzmunun yenilənməsi reproduktiv və instruktiv fəaliyyətdən axtarıcılıq və tədqiqatçılıq fəaliyyətə keçməklə izah olunur. Bu zaman şagird yalnız tamaşaçı, dinləyici, təkrar edən deyil, tədqiqatçı kimi özünü büruzə verir.

Beləliklə, dərsliklər tərtib edilərkən şagirdlərdə müstəqil qabiliyyətlərin inkişafını təmin edən materialların daxil edilməsinə önəm verilməlidir

I fəslin dördüncü paraqrafında *"**İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə üzrə məktəb təcrübəsinin öyrənilməsi"***ndən bəhs edilir. Müşahidələr göstərir ki, bəzi ibtidai sinif müəllimləri müxtəlif incəsənət növlərindən istifadə etməklə daha səmərəli təlim nəticələri əldə edirlər: təsviri incəsənət, musiqi, kino, teatr və digər növlərinin tətbiqi Azərbaycan dili, rus dili, ingilis dili, həyat bilgisi, texnologiya, fiziki tərbiyə dərslərində xəyali təfəkkürü inkişaf etdirir, kitabdan oxuduqları ilə bədii əsərlərin müqayisə edilməsi bir çox məsələlərə aydınlıq gətirir, başqasının baxışına hörmət etməyi öyrədir, müstəqil düşüncəni formalaşdırır və şagirdlərin zövqünü inkişaf etdirir. Fiziki tərbiyə dərslərində Ü.Hacıbəyovun "Cəngi" əsərinin səsləndirilməsi şagirdlərdə ruh yüksəkliyi yaradır. "Vətənpərvər ruha söykənən "Yallı"lar hər zaman ifaçıların, tamaşaçıların, seyircilərin ruh yüksəkliyinə təkan verir. "Yallı"ları ifa edən uşaqlar və gənclərin özləri də vətənpərvərlik ruhunda ucalaraq gələcəyə addımlayırlar".

Aparılan tədqiqatın həyata keçirildiyi dövr Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət kəsb edən hadisələrlə üst-üstə düşmüşdür. Belə ki, uzun illər davam edən Azərbaycan–Ermənistan münaqişəsinin nəticəsi olaraq baş vermiş Vətən müharibəsinin

[3] Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Fənn kurikulumları (I-IV siniflər) / – Bakı: – 2008. – s.105.

Azərbaycanın qələbəsi ilə başa çatması, eyni zamanda bütün dünyanı əhatə edən COVID-19 pandemiyasının təhsil sisteminə təsiri şagirdlərin yaradıcılıq fəaliyyətində öz əksini tapmışdır. Müşahidələr göstərmişdir ki, bu hadisələr uşaqların yaradıcılıq təfəkküründün formalaşmasına və onların müxtəlif mövzulara münasibətlərinin ifadəsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Rəngli kağızlardan düzəldilmiş əşya və fiqurlar şagirdlərin təfəkküründü və fantaziyasını inkişaf etdirir, onları maraqlı və özünəməxsus yaradıcı fəaliyyətə sövq edir. Ümumtəhsil məktəblərinin IV sinif şagirdləri "Qarabağ döyüşlərinin qəhrəmanları", "Qarabağ xalçaları", "Şuşa qalası", "Azərbaycan milli geyimləri" mövzusunda rəngli kağızlardan istifadə edərək, bunları əks etdirən rəsmlər çəkir, applikasiyalar düzəldir və milli paltarları nümayiş etdirirlər. Qeyd edək ki, onlayn dərslərdə şagirdlər bu mövzulara daha çox maraq göstərmiş və daxili sevinc və həyəcanlarını özlərinin əl işlərində nümayiş etdirmişlər.

Şagirdlər yenilikləri daha maraqla qarşılayırlar. İbtidai sinif şagirdləri Vətən Müharibəsində qazandığımız qələbədən ruhlanır, qəhrəman döyüşçülərimizi öz işlərində əks etdirməyə çalışırlar. Bu, onları daha fədakar işlərə sövq edir. "Şuşa qalası"nı, "Xarı bülbül"ü, "Azıx mağarası"nı, "Qəhrəman Azərbaycan əsgəri"ni əks etdirən əl işləri uşaqlarda vətənpərvərlik ruhunu yüksəldir.

Beləliklə, ibtidai siniflərdə müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən istifadə etməyin təlimin keyfiyyətinin yüksəlməsinə müsbət təsiri aşağıdakı amillərlə izah olunur:

a) intellekt tipi, fərdi maraq və meyillərin nəzərə alınması;

b) yaradıcı fəaliyyətə meyil və maraqların yaradılması;

c) estetik hisslərin və qabiliyyətlərin aşılanması;

ç) sənət əsərlərinin təhlil edilməsi;

d) incəsənət nümunələrinin məzmununun və fəaliyyətin estetik dəyərinin dərk edilməsi;

e) asudə vaxtların məqsədyönlü və ardıcıl təşkili".

Dissertasiyanın **II fəsli "İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin prinsipləri, meyarları və yolları"** adlanır. Bu fəslin birinci paraqrafında ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə prinsipləri və meyarları"*** açıqlanır. Nəzəri

təhlillər zamanı incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə müsbət təsirinin pedaqoji prinsipləri müəyyən edilmişdir:

1. Təlim prosesində bədii qavrama ilə yaradıcılıq təxəyyülünün vəhdəti.

2. Fənlərin təlimi prosesində bilik, bacarıq və praktik təcrübə ilə yanaşı, şagirdlərin əxlaqi, mənəvi, estetik və bədii tərbiyəsinin təmin olunması.

3. Fərdi və kollektiv iş formalarının təqdim edilməsində şagirdlərin yaş xüsusiyyətləri və fərdi maraqlarının nəzərə alınması.

4. Azərbaycan dili, Həyat bilgisi, İngilis dili, Texnologiya fənlərinin tədrisində təsviri fəaliyyət, musiqi, bədii ədəbiyyat, kino və incəsənətin digər növləri üzrə obrazlı atmosferin yaradılması, şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi.

Vasitələr:

1. Bədii materialların təqdim olunması.

2. Bu məqsədlə təlim prosesində və təlimdənkənar vaxtlarda müvafiq mövzulara uyğun reproduksiyalar göstərmək, musiqi və ədəbi əsərlər təqdim etmək, filmlərdən fraqmentlər nümayiş etdirmək, İKT resurslarından istifadə etmək və s.

Təlimin məzmununa və metodlarına verilən tələblər.

İbtidai siniflərdə təlim prosesində incəsənət nümunələrinin məzmunu və metodlarına verilən tələblər aşağıdakılardır:

1. Təlim prosesinin üzvi birləşməsi və vəhdəti: əxlaqi, mənəvi, estetik və bədii tərbiyə. Şagirdlər tərəfindən bədii biliklərin sistemli şəkildə mənimsənilməsi və bədii fəaliyyətdə praktik vərdişlərin inkişafı ilə birlikdə həyata keçirilməsi.

2. Şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla, fərdi və kollektiv iş formalarının aparılması.

3. İncəsənət növlərinin istifadəsi ilə birlikdə meydana çıxan əsas fikirlərin formalaşması: ətraf aləm haqqında estetik təsəvvürlərin inkişafı, sənət qavrayışı, nəzəri bilik, yaradıcı və praktik fəaliyyət.

Müvafiq prinsiplər, amillər və tələblərlə yanaşı, tədqiqat prosesində yanaşmaların da nəzərə alınması uğurlu nəticələr verir. Bunlar aşağıdakılardır:

1. *Şəxsiyyətyönlü yanaşma.* Bu yanaşma pedaqogikada humanist istiqaməti nəzərdə tutur, onun əsas prinsipi öyrətmək deyil,

öyrənməyə yönəltməkdir.

2. *Fəaliyyətyönlü yanaşma.* Bu yanaşma şagirdin şüurunun və bütövlükdə şəxsiyyətinin formalaşmasına yönəlmiş fəaliyyət prosesidir.

3. *Səriştəli yanaşma.* Səriştəyə əsaslanan yanaşma, hədəflərin müəyyənləşdirilməsini, təhsilin məzmununun seçilməsini, tədris prosesinin təşkilini, şagirdlərin mənimsənilməsinə yönəlmiş təhsil nəticələrinin nəzarət və qiymətləndirilməsinin məzmununu müəyyənləşdirən ümumi prinsiplər məcmusudur

4. *Təlimdə mühitin rolu.*

II fəslin ikinci paraqrafında ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə təsiri yolları"*** göstərilir. Həyata estetik münasibət dünyada hər bir insan varlığı üçün zəruri olan xüsusi bir keyfiyyətdir

Bu keyfiyyətlərin inkişafı əxlaqi, ekoloji, vətənpərvərlik və digər təhsil növləri üzrə aparılan işlər üçün möhkəm zəmin yaradır. "İbtidai təhsildə incəsənət nümunələrindən istifadənin əsas məqsədi şagirdin milli və dünya mədəniyyətinə dəyər münasibətləri kimi bədii, estetik, mənəvi və əxlaqi mədəniyyətinin formalaşması, onun inkişafı, yaradıcı potensialı, dünyanın yaradıcı inkişafında və yaxşılığa doğru dəyişməsində iştirakını nəzərdə tutur".

Bu hədəfə çatmaq üçün aşağıdakı metodlardan istifadə edilmişdir:

Metodlar: 1. İnteraktiv təlim texnologiyalarının tətbiqi. 2. İKT-dən istifadə. 3. Problemli situasiya. 4. Tədqiqat işi. 5. Öyrənilən mövzular üçün illüstrasiya materialının seçilməsi. 6. Musiqi və ədəbi əsərləri dinləmək (xalq, klassik, müasir, dünya musiqisi). 7. Əsərlərin müzakirəsi. 8. Kino fraqmentləri və videoçarxların nümayişi.

İbtidai siniflərdə incəsənət nümunələrinin istifadə edilməsinin *təşkili formaları* aşağıdakılardır: *a) təlim prosesində; b) təlimdənkənar vaxtlarda.*

Dərslərin qeyri-ənənəvi keçirilməsi şagirdlər üçün öz qabiliyyətlərini nümayiş etdirməyə geniş imkan yaradır.

Bu dərslərdə şagirdlər fəal surətdə fikirləşir, onlarda iradə və yaşıdları ilə birgə işləmək həvəsi yaranır.

Dissertasiyanın **III fəsli "İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə təsiri modeli və pedaqoji eksperimentin aparılması"** adlanır. Bu fəslin birinci


paraqrafında ***"İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə təsiri modeli"*** açıqlanmışdır. Nəzəri ideyaların, məktəb təcrübəsinin və müəyyənedici eksperimentin təhlili nəticəsində aldığımız nəticələrə əsasən ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə təsiri üzrə pedaqoji model işləndi.

Təqdim edilmiş modeldə təlim prosesində incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə müsbət təsirinin pedaqoji şərtləri də göstərilir ki, bu da adekvat monitorinq aparmağa, problemləri aşkar etməyə və onların aradan qaldırılması yollarını göstərməyə imkan verir.

Yuxarıda deyilənləri nəzərə alaraq ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin modelini təqdim edirik (Sxem 3.1.1.).

Sxem 3.1.1.

İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiri



Təqdim etdiyimiz modeldə incəsənət nümunələrindən istifadə hər bir şagirdin meylinə, marağına və qabiliyyətlərinə uyğun həyata keçirilir (H.Qardner nəzəriyyəsinə görə). Uzun illərin təcrübəsi göstərir ki, incəsənət növlərində - təsviri incəsənətdə, musiqidə, teatr fəaliyyətində və digər sahələrdə əldə edilən uğurlar əksər hallarda şagirdlərin intellektual inkişafını və digər fənlərin yüksək mənimsəmə nəticələrini də müəyyən edir. Unutmaq olmaz ki, inkişaf müxtəlif fəaliyyət növlərinin mənimsənilməsi nəticəsində baş verir. İncəsənət nümunələri isə müəyyən hərəki vərdişləri (rəsm, rəqs, mahnı oxumaq, tamaşalarda iştirak etmək) mənimsəməyə, nitq fəaliyyəti vərdişlərinin (mahnıların sözlərini, tamaşada iştirak edərkən mətnlərdən parçaları) inkişafına kömək edir. Onlar rəssamların əsərlərini daha dərindən dərk edir və bunu şərh edirlər. İncəsənətin növləri üzrə aparılan işlər şagirdlərdə bu sənət əsərləri vasitəsilə əxlaqi, mənəvi və estetik dəyərlər sistemini mənimsəməyə sövq edir. Bu, birbaşa şəxsiyyətlərarası və sosial ünsiyyətə aparan yoldur.

III fəslin ikinci paraqrafı ***"İbtidai sinif müəllimlərinin təlim prosesində incəsənətin müxtəlif növlərindən istifadə etməyə hazırlığı"***na həsr edilmişdir. Müəllim üçün bir sıra ümumi və xüsusi pedaqoji qabiliyyətlərə malik olmaq çox vacibdir, lakin bunlar həmişə kifayət etmir. Bütün məktəblərin ibtidai siniflərində "Təsviri incəsənət", "Musiqi", bəzən "Texnologiya" fənlərini mütəxəssislər deyil, ibtidai sinif müəllimi tədris edir. Müəllim yaradıcılığa meyilli olduqda, pedaqoji iş təcrübəsinə və öznüinkişafa səy göstərdikdə, bu çətinliklər aradan qaldırılır.

"Araşdırmalarımız göstərir ki, ibtidai sinif şagirdlərinin mənimsəməli olduğu dəyərlər (şəxsi və sosial məsuliyyət, özünü anlama və idarə etmə; tənqidi və yaradıcı düşünmə; ünsiyyət və əməkdaşlıq yaratma; milli kimliyin dərki və milli iftixar hissi, məna yaratma; demokratiya və insan hüquqlarına, hörmət sağlam həyat tərzi yaşama; fəal vətəndaş mövqeyi, mədəni müxtəlifliyə hörmət) və kompetensiyalar (yaradıcılıq, tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə, ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq) dəyişdikcə, ona uyğun olaraq ibtidai sinif müəllimi hazırlığına verilən tələblər də dəyişir".

Bu, o deməkdir ki, şagirdlərin ümumi inkişafında müəllimin

onlara istiqamət verməsi zəruridir. Onun bütün fəaliyyət növləri düşünülmüş və pedaqoji cəhətdən əsaslandırılır.

III fəslin üçüncü paraqrafı ***"Pedaqoji eksperimentin təşkili, aparılması və nəticələri"*** adlanır. Pedaqoji eksperiment müəyyənedici, öyrədici və yoxlayıcı mərhələlərdən ibarət olmuşdur. Müəyyənedici eksperiment 2019/2020-ci tədris ilində Binəqədi rayonu 284№-li, Yasamal rayonu 38 №-li, Sabunçu rayonu 74 №-li və Binəqədi rayonu 143 №-li məktəblərinin 8 müəllimi və 286 nəfər ibtidai sinif şagirdləri ilə aparılmışdır. Müəyyənedici eksperimentin *məqsədi* aşağıdakı kimi müəyyənləşdirildi:

– ibtidai sinif şagirdlərilə aparılan təlim prosesində istifadə edilən incəsənət nümunələrinin diaqnostik qiymətləndirilməsi;

– təlim prosesində və təlimdənkənar vaxtlarda incəsənət nümunələrindən istifadə zamanı müəllim və şagirdlərin qarşılaşdığı çətinliklərin aşkar edilməsi.

Eksperimentin vəzifəsi: yoxlayıcı metodika əsasında müxtəlif fənlərin tədrisində şagirdlərin incəsənət nümunələrindən istifadə qabiliyyətləri və mənimsəməsinin yoxlanılması.

Tədqiqat işinin əsasını aşağıdakı ***fərziyyə*** təşkil edir:

– ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin pedaqoji şərtləri, meyarları və prinsipləri müəyyənləşdirilərsə;

– ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin məzmunu şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına, təlim və təlimdənkənar fəaliyyətində özünü ifadə etməsinə yönələrsə;

– təlim prosesinə incəsənət nümunələrindən istifadə etməklə oyun texnologiyaları daxil edilərsə, pedaqoji kollektivin və valideynlərin bu işdə qarşılıqlı fəaliyyəti təmin edilərsə;

– ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin modeli və təlim prosesinin təşkili sistemi işlənərsə, bu, idrak fəallığının yüksəlməsnə, şagirdlərin intellektual, emosional, sosial inkişafına, və, ümumilikdə, təlimin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin müstəqil yaradıcı qabiliyyətlərinin inkişafına və şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərər.

Birinci yoxlamanın məqsədi şagirdlərin incəsənət nümunələrindən istifadə üzrə fəaliyyəti xüsusi tapşırıqlarla aşkar edilmişdir (çəkilmiş rəsmin izahı, musiqinin mətnin məzmununa uyğunluğu,

yaradıcılıq elementləri və dünyagörüşünün səviyyəsi, İKT bacarıqları, fənlərə maraq və praktik bilik səviyyələrinin yoxlanılması). İkinci yoxlamada isə şagirdlərin incəsənət nümunələrindən istifadə etməklə əldə etdikləri kompetensiyaların dəqiqləşdirilməsi olmuşdur.

Təlimin keyfiyyətinin yüksəldilməsinə və yaradıcılıq fəaliyyətinin formalaşma səviyyələrinə görə nəzarət qrupları (yüksək, orta, aşağı) qiymətləndirildi. (Cədvəl 3.3.1.).

Cədvəl 3.3.1.

Müəyyənedici eksperimentin nəticələri

İllər	**Məktəb**	**Kontrol Qrupları**	**Şagirdlərin Sayı**	**İncəsənət nümunələrindən nümu istifadə üzrə verilən tapşırıqların yetirilmə səviyyəsi**		
				Aşağı	*Orta*	*Yüksək*
2019-2020	Binəqədir-nu 284№-li məktəb	I sinif	35n	19n	16n	0
			100%	54,3%	45,7%	
	Yasamalr-nu 38 №-li məktəb	II sinif	32n	20n	12n	0
			100%	62,5%	37,5%	
		III sinif	37n	21n	16n	0
			100%	56,8%	43,2%	
		IV sinif	38n	21n	17n	0
			100%	55,3%	44,7%	
2019-2020	Sabunçur-nu 74 №-li məktəb	**Eksperimental qruplar**	**Şagirdlərin Sayı**	*Aşağı*	*Orta*	*Yüksək*
		I sinif	34n	18n	15n	1n
			100%	52,94%	44,12%	2,94%
	Binəqədir-nu 143№-li məktəb	II sinif	37n	21n	15n	1n
			100%	56,8%	40,5%	2,7%
		III sinif	38n	22	16n	0
			100%	57,9%	42,1%	
		IV sinif	35n	18n	17n	0
			100%	51,4%	48,6%	

Göründüyü kimi, istər kontrol (I sinif, 35 nəfər), istərsə də eksperimental sinifdə (I sinif, 34 nəfər) şagirdlərinin incəsənət nümunələrindən istifadə üzrə verilən tapşırıqların yetirilmə səviyyəsi müvafiq qaydada aşağı (54,3% ~ 52,94%), orta (45,7% ~ 44,12%) və yüksək (0% ~ 2,94%), II sinifdə (32 nəfər kontrol və 37 nəfər eksperimental sinifdə) müvafiq qaydada aşağı (62,5% ~ 56,8%), orta (37,5% ~ 40,5%), yüksək (0% ~ 2,7%), III sinifdə (37 nəfər kontrol və 38 nəfər eksperimental sinifdə) müvafiq qaydada aşağı (56,8% ~ 57,9%), orta (43,2 ~ 42,1), yüksək (0% ~ 0%) və IV sinifdə (38 nəfər kontrol, 35 nəfər eksperimental) aşağı (55,3% ~ 51,4%), orta (44,7% ~ 48,6%), yüksək (0% ~ 0%) göstəricilər üzrə demək olar ki, bir-birinə bərabər səviyyədədir.

İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi üzrə aparılan müəyyənedici eksperiment zamanı kontrol və eksperimental qrupların göstəriciləri demək olar ki, eyni səviyyədə idi. Belə ki, onlara verilən tapşırıqların, oyunların, təqdim edilən situasiaların, müstəqil işlərin yerinə yetirilməsində müsbət cəhətlərlə yanaşı, çatışmazlıqlarda da yaxınlıq var idi.

Müəyyənedici eksperimentin nəticələrindən belə qənaətə gəlmək olar ki, müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən sistemli surətdə istifadə etdikdə şagirdlərin yaradıcılıq fəallığının uğurlu formalaşmasına təsir edən yaş xüsusiyyətləri nəzərə alnmalıdır ki, bu da gələcəkdə yüksək texnologiyalar sferasında və yaradıcılıq sahəsində rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına səbəb ola bilər. Məhz bu dövrdə şagirdlərdə təlimə maraq, idrak tələbatları və meyillər, fərdi xüsusiyyətlərin özünü büruzə verməsi, özününəzarət, özününizamlama, özünə və başqalarına tənqidi münasibət, kommunikativ vərdişlərin inkişafı diqqəti cəlb edir.

Öyrədici eksperiment. Öyrədici eksperiment 2021/2022-ci tədris ili dövründə Binəqədi rayonunun 284 №-li, Yasamal rayonunun 38 №-li, Sabunçu rayonunun 74№-li və Binəqədi rayonunun 143 №-li məktəblərinin 8 müəllimi və 280 nəfər ibtidai sinif şagirdləri ilə aparılmışdır.

Eksperimentin **məqsədi***:* irəli sürülən fərziyyənin doğruluğunun isbat edilməsi, ibtidai siniflərdə müxtəlif fənlərin

tədrisində incəsənət nümunələrindən istifadənin təlimin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri üzrə metodik iş sisteminin yoxlanılması oldu.

Tədqiqat prosesində aparılan işlərin nəticələri şagirdlərin təhsil səviyyəsinin müsbət dinamikasını göstərdi.

Yaradıcı qabiliyyətlərin inkişafının nəticələri uşaqların müxtəlif səviyyəli müsabiqələrdə, festivallarda, layihələrdə iştirakıdır. Bu məqsədlə məktəbdə aşağıdakı tədbirlər keçirildi:

1. "Əsgərə məktub" Məktəb regional aksiya-müsabiqəsinin mükafatçısı.
2. "Gənc rəssam" yaradıcılıq müsabiqəsinin mükafatçısı.
3. "Gənc musiqiçi" yaradıcılıq müsabiqəsinin mükafatçısı.
3. Şagirdlərin yaradıcılıq işləri: "Vətən Müharibəsindəki Qələbəmizlə fəxr edirəm!" Vətən müharibəsinə həsr edilmiş sərgi.
4. "Qiraətçi" yaradıcılıq müsabiqəsinin mükafatçısı.
5. 44 günlük Vətən Müharibəsində Qələbəyə həsr olunmuş rəsm müsabiqəsinin mükafatçısı.

Cədvəl 3.3.2.

Öyrədici eksperimentin nəticələri

İllər	Məktəb	Kontrol qrupları	Şagirdlərin Sayı	İncəsənət nümunələrindən istifadə üzrə verilən tapşırıqların yerinə yetirilmə səviyyəsi		
				Aşağı	*Orta*	*Yüksək*
2021-2022	Binəqədi r-nu 284№ məktəb	I sinif	34n	23n	10n	1
			100%	67,7 %	29,4 %	2,9%
	Yasamal r-nu 38№-li məktəb	II sinif	35n	23n	12n	0
			100%	65,7 %	34,3 %	
		III sinif	32n	21n	11n	0
			100%	65,6 %	34,4 %	
		IV sinif	37n	26n	11n	0
			100%	70,3 %	29,7 %	

Cədvəl 3.3.2.-nin ardı

2021-2022	Sabunçu r-nu 74№-li məktəb	*Eksperimental qruplar*	*Şagirdlərin Sayı*	*Aşağı*	*Orta*	*Yüksək*
		I sinif	33n	3 n	24n	6n
			100%	9,1%	72,7%	18,2%
	Binəqədi r-nu 143№ məktəb	II sinif	34n	2n	20n	12n
			100%	5,9%	58,8%	35,3%
		III sinif	37n	5	25n	7n
			100%	13,5%	67,6%	18,9%
		IV sinif	38n	6n	23n	9n
			100%	15,8%	60,5%	23,7%

Göründüyü kimi, kontrol qrupları ilə müqayisədə eksperimental siniflərin şagirdləri incəsənət nümunələrindən istifadə üzrə verilən tapşırıqların yetirilmə səviyyəsi I sinifdə (34 nəfər kontrol, 33 nəfər eksperimental) xeyli irəliləmiş, aşağı göstəricilər 67,7%-dən 9,1%-ə enmiş, orta göstəricilər 29,4% ~ 72,7%-ə və yüksək göstəricilər 2,9%-dən 18,2% qalxmışdır. II sinifdə (35 nəfər kontrol, 34 nəfər ekspe-rimental sinif) aşağı göstəricilər 65,7%-dən 5,9%-ə enmiş, orta göstərici 34,3% ~ 58,8%-ə, yüksək göstəricilər isə 0%-dən 35,3%-ə qalxmışdır. III sinif şagirdlərinin (32 nəfər kontrol, 37 nəfər eksperimental) aşağı göstəriciləri 65,6%-dən 13,5%-enmiş, orta göstəricilər 34,4% ~ 67,6%-ə, yüksək göstəriciləri isə 0%-dən 18,9% qalxmışdır. IV sinif şagirlərinin (37 nəfər kontrol, 38 nəfər eksperimental) aşağı göstəriciləri 70,3%-dən 15,8%-ə enmiş, orta göstəricilər 29,7% ~ 60,5%-ə, yüksək göstəricilər isə 0%-dən 23,7%-ə qalxmışdır.

Beləliklə, ibtidai siniflərdə incəsənət nümulərindən istifadə üzrə tətbiq olunmuş model uğurlu nəticələr verdi və şagirdlərin yaradıcılıq keyfiyyətlərinin formalaşması üzrə irəliləyişlər müşahidə edildi ki, bu da təlimin keyfiyyətinə müsbət təsir göstərdi.

Yoxlayıcı eksperiment. Eksperimentin hansı nəticələr verdiyini yoxlamaq məqsədilə ilin sonunda müəyyənedici eksperimentin nəticələrini yoxladığımız metodika ilə fənlərə maraq və praktik bilik səviyyələrinin yoxlanılması keçirildi.

Yoxlayıcı eksperimentin nəticələrinə görə, eksperimental sinif şagirdlərinin kontrol sinif şagirdləri ilə müqayisədə daha yaxşı nəticələr əldə etdiyi müəyyənləşdi ki, bu da təqdim etdiyimiz

modelin uğurlu olması, sistemli şəkildə aparılması ilə əlaqədardır. Beləliklə, alınan nəticələr ibtidai siniflərdə müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə müsbət təsir etdiyi ilə yanaşı, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin formalaşmasına, bədii və estetik inkişafına, sərbəst fikir söyləmələrinə təsir etdiyini göstərdi.

I-IV sinifdə yoxlayıcı eksperimentin nəticələrinə görə, təlim və təlimdənkənar vaxtlarda incəsənət növlərindən istifadə üzrə aşağıdakı nəticələr alınmışdır:

Cədvəl 3.3.3.

İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin müxtəlif fənlərin mənimsənilməsi keyfiyyətinə təsiri

Siniflər	I sinif	II sinif	III sinif	IV sinif
Şagirdlərin sayı	33 n	34 n	37 n	38 n
Ümumi mənimsəmə	100%	100%	100%	100%
Fənlər üzrə:	-	-	-	-
Azərbaycan dili	15 n 45,5%	28 n 82,4%	29 n 78,4%	29 n 76,3%
Xarici dil	12 n 36,4%	16 n 47,1%	18 n 48,6%	23 n 60,5%
Texnologiya	18 n 54,5%	28 n 82,4%	27 n 73%	30 n 78,9%
Riyaziyyat	8 n 24,2%	11 n 32,4%	13 n 35,1%	18 n 47,4%
Həyat bilgisi	11 n 33,3%	22 n 64,7%	25 n 67,6%	23 n 60,5%

Pedaqoji eksperiment irəli sürdüyümüz fərziyyənin həqiqiliyini bir daha sübut etdi ki, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə təlimin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin bədii və estetik inkişafına müsbət təsir göstərir. Bu, həmçinin, şagirdlərdə yaradıcılıq elementləri və dünyagörüşünün səviyyəsinin, İKT bacarıqlarının, fənlərə marağın formalaşdığını göstərir.

Yuxarıda deyilənlərlə yanaşı, biz həmçinin xarici ölkələrdə, Amerika Birləşmiş Ştatlarında və Finlandiyada oxşar tədqiqatların aparılması ilə də maraqlandıq. Araşdırmalar göstərdi ki, bizim apardığımız tədqiqatla xaricdə aparılan tədqiqatlar arasında oxşar və fərqli cəhətlər mövcuddur.

Oxşar cəhətlər ondan ibarətdir ki, göstərilən dissertasiyalarda da təlim prosesində bizim tətbiq etdiyimiz təlim metodlarından (vizual təhlil, müzakirə, sual-cavab, problem əsaslı öyrənmə, yaradıcı layihə metodu) istifadə edilmişdir.

Göründüyü kimi bizim apardığımız və xaricdə aparılan tədqiqatlar arasında ümumi cəhətlər mövcuddur. Lakin bununla yanaşı, fərqləri də qeyd etmək zəruridir.

1. Xarici tədqiqatlarda müəlliflər ya təlim prosesində, ya da təlimdənkənar vaxtlarda sözügedən tədqiqatı aparmışdır. Biz isə tədqiqat zamanı hər iki pedaqoji prosesi əhatə etməyə çalışmışıq.

2. Bizim apardığımız tədqiqat işində H.Qardner nəzəriyyəsinə istinadən hər bir şagirdin hansı zəka növünə aid oldugu, incəsənət növünə meyilli olması nəzərə alınaraq müvafiq tapşırıqların verilməsi məqsədəuygun hesab edildi.

3. Məzmun müəyyənləşdirilərkən milli incəsənət nümunələri ilə yanaşı, dünya uşaq ədəbiyyatından, musiqisindən, rəssamların əsərlərindən, filmlərdən, cizgi filmlərindən geniş istifadə edilmişdir.

4. Təlim prosesində və təlimdənkənar vaxtlarda bəzi şagirdlərin psixoloji vəziyyətini nəzərə alaraq art-terapiya elementlərindən də geniş istifadə edilmiş, yaradıcılığını inkişaf etdirməyə imkan yaradılmışdır.

5. Qeyri-ənənəvi dərslərin keçirilməsi də müsbət nəticələr vermişdir.

6. Şagirdlərin idrak fəallığının yüksəlməsinə, intellektual, emosional, sosial inkişafına, müstəqil yaradıcı qabiliyyətlərinin formalaşmasına təsir göstərən struktur model tətbiq edilmişdir.

Beləliklə, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə modelinin tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsinin əsas şərtlərindən biri olaraq bu sahədə təlimin keyfiyyətinin yüksəldilməsində böyük rol oynadı.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

1. Aparılan tədqiqat işindən belə qənaətə gəlmək olar ki, ibtidai siniflərdə müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən səmərəli istifadə etmək üçün dörd pedaqoji şərt vacibdir:

– müəllimlərin bu sahədə hazırlanması;

– təlim prosesini müvafiq təchizatla təmin edilməsi;

– ibtidai sinif şagirdlərinin incəsənət nümunələrindən orijinal və səmərəli istifadə etməyə stimullaşdırılması, hər birinin meyil və maraqlarının öyrənilməsi

– təlim prosesinə dərsliklərdə verilən materiallara müvafiq incəsənət nümunələrinin daxil edilməsi.

2. Tədqiqat zamanı ibtidai sinif şagirdlərinin təlim prosesinə adaptasiyasının spesifik problemləri də özünü büruzə verdi: təlimə marağın olmaması, diqqətin yayınması, fiziki passivlik, sinir sistemi xəstəlikləri, apatiya və təşəbbüskarlıq və ya əksinə, hiperaktivlik, təcavüzkarlıq və əsəbilik. Bütün bu sinir təzahürləri art-terapiyanın köməyi ilə aradan müəyyən qədər aradan qaldırılmışdır. Bu cür şagirdlər duyğularını materialda və ya kağızda ifadə etməklə öz istəklərini yaxınlarına və yaşıdlarına çatdırırlar.

3. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə yolu ilə kiçik məktəblilərin mənəvi cəhətdən zənginləşməsinin əsas vəzifələrini həll edərkən, müəllim üçün bədii - pedaqoji prosesin necə təşkil ediləcəyi, hansı məzmun və formalar vasitəsilə yaradıcı şəxsiyyətin formalaşmasına təsir göstərməsi müəyyən edildi.

4. İbtidai sinif müəlliminin pedaqoji fəaliyyətinin müvəffəqiyyətini təyin edən əsas prinsip uşaq yaradıcılığına diqqətli münasibət, onlardan hər birinin hansı incəsənət nümunəsinə daha çox meyil etməsi, qabiliyyəti (H.Qardnerin nəzəriyyəsinə əsasən) və eyni zamanda bu prosesin diqqətlə idarə olunmasıdır.

5. Şagirdin yalnız mənəvi dünyasının deyil, həm də bilik, praktik bacarıq və yaradıcı qabiliyyətlərinin uğurlu formalaşmasının əsas şərtləri bunlardır:

– müəllimin pedaqoji yaradıcılıq qabiliyyətlərinin və təlim prosesinin təkmilləşdirilməsinin təmin edilməsi;

– şagirdlərin bədii və yaradıcı fəaliyyətinə fərdi yanaşılması;

– incəsənət növlərindən istifadə zamanı milli və ümumbəşəri dəyərlərə istinad edilməsi;

– bədii materiallar və ifadə vasitələri seçimində kiçik məktəblilərin müstəqilliyinin stimullaşdırılması.

6. İbtidai sinif müəlliminin daim dəyişən sosial dəyərlərin, getdikcə daha çox informasiya axınının həmişə sənətdə əks olunduğunu bilməsi zəruridir. Yalnız həqiqi mənəvi sənət əsərləri ölməz

olur. Buna görə də, klassik rəssamlıq, sənətkarlıq və xalq sənəti nümunələri mövzu sahəsinin məzmununun əsasını təşkil etmişdir.

7. Bununla yanaşı, mövzular seçilərkən şagirdləri əhatə edən mühit, bugünkü ictimai problemlər də diqqət mərkəzində olmuşdur (Vətən müharibəsi, Şəhidlər, Qazilər, Qəhrəmanlar, azad olunmuş torpaqlar və s.) Müəllimin özünün təcrübədə sınaqdan keçirdiyi və uğur qazandığı metodlar onun tədris fəaliyyətinin əsasını təşkil etmişdir.

8. Fənlər üzrə mövzuların öyrənilməsində videoçarxların istifadəsi şagirdlərin təlim materialını əyani surətdə mənimsəməsinə kömək edir. Mövzunun vizuallaşdırılması, xüsusən metasubyektiv olan ümumbəşəri təhsil fəaliyyətlərinin inkişafına kömək edir.

9. İbtidai siniflərdə kino və videofilmlərdən istifadə tədris prosesini xeyli intensivləşdirməyə imkan verir, dərsi təşkil etmək üçün müəllimdən kreativ yanaşma tələb edir, şagirdlərin dünyagörüşünün genişlənməsinə təsir göstərir.

10. Eksperiment zamanı ibtidai sinif şagirdlərinin yaradıcı qabiliyyətlərinin formalaşması xüsusiyyətləri aşkar oldu. Şagirdlərdən hər birinin müəyyən incəsənət növünə marağı və fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmaqla diferensial yanaşma təmin olundu. İncəsənət nümunələrinin növlərindən istifadənin əsas istiqamətlərinin tətbiqi müsbət nəticələr verdi.

11. Müxtəlif fənlərin tədrisində incəsənət nümunələrindən istifadə etməklə şagirdlərin diqqətini gözəllik aləminə yönəldilməsi. Bu sahədə xalq yaradıcılığı, rəssamların əsərləri, xalq musiqisi, dünya musiqisi, bədii və sənədli filmlər, müxtəlif xalqların nağılları və s. böyük rol oynayır.

12. İbtidai siniflərdə incəsənətin tədrisi metodologiyası bədii-estetik inkişafın, praktik fəaliyyətin və dünyanın emosional qavrayışının inteqrasiyasına əsaslanmışdır.

13. Müasir ibtidai təhsil modelində incəsənət növlərinin təlim prosesinə inteqrasiyanın elmi-nəzəri əsaslarını dərindən işləyən və təlim keyfiyyətinə təsir qanunauyğunluqlarını üzə çıxaran konseptual bir ideya tədqiqatın elmi yeniliyini sübut edir.

Beləliklə, eksperimental təlim nəticəsində müxtəlif fənlərin tədrisi prosesində incəsənət növlərindən istifadə etməklə şagirdlərdə

yaradıcılıq fəaliyyəti üzrə bir sıra bacarıq, vərdiş və qabiliyyətlər formalaşdı: öz fikrinin ətraf aləmdə gördükləri və oxuduqları ilə müqayisə edilməsi; hər bir incəsənət nümunəsinin imkanları haqqında biliklərin genişləndirilməsi və fənlər üzrə verilmiş mövzularda tətbiq edilməsi; alınmış təəssüratların öz yaradıcılığında təcəssüm etdirilməsi.

Apardığımız tədqiqatın əsas nailiyyəti eksperimental sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin formalaşmasının ümumilikdə təlimin keyfiyyətinin yüksəlməsinə təsiri olmuşdur. Bütövlükdə, alınan nəticələr irəli sürülən fərziyyənin doğruluğunu sübut etdi.

Tədqiqat prosesində gəldiyimiz nəticələrə əsasən aşağıdakı **təkliflərin** nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1. İbtidai siniflər üçün tərtib edilən dərsliklərdə əsas diqqətin hər bir uşağı yükləmədən qabiliyyətlərinə, maraqlarına, inkişafına imkan yaradan materialların verilməsinə diqqət yetirilməsi məqsədəuyğundur. Bu, o məqsədlə verilməlidir ki, müəllim şagirdlərə və valideynlərə fərdi iş tapşırırarkən çətinlik çəkməsin.

2. Dərsliklərin müasir pedaqoji, psixoloji və sosial elmlərin nailiyyətləri, məktəb təcrübəsinin nəticələrini nəzərə alaraq, şagirdlərin milli-mənəvi ruhda və şəxsiyyətyönümlü tərbiyəsinə istiqamətlənməsi zəruridir. Bu baxımdan ehtiyat dərsliklərin istifadəsi də müsbət nəticələr verir.

3. 44 günlük Vətən müharibəsindən sonra qazandığımız qalibiyyət, "Zəfər günü" dərsliklərdə öz əksini tapmalıdır. Vətənpərvərlik hissi formalaşdıran, düşmənə qarşı ayıq-sayıq olmağı təşviq edən materiallar daxil edilməlidir.

4. "Ölkəmizin gələcəyini necə görmək istəyirsiniz?" mövzusunda materialların və tapşırıqların verilməsi məqsədəuyğundur.

5. İbtidai sinif müəllimləri üçün təlim prosesində və dərskənar vaxtlarda incəsənət nümunələrindən ardıcıl və sistemli istifadə ilə bağlı nəzəri-pedaqoji və praktik yönümlü ədəbiyyatların nəşr edilməsi və müəllimlərin istifadəsinə verilməsi məqsədəuyğun olardı.

*Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:*

1. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin mahiyyəti və əhəmiyyəti // Azərbaycan Memarlıq və İnşaat Universiteti, Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş Doktorantların və Gənc Tədqiqatçıların XXIII respublika elmi konfransının materialları. – Bakı: – 03-04 dekabr, – 2019. – I cild. – s. 419-422.
2. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinin yüksəldilməsinə təsiri // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2020. №5, – s.169-174.
3. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin pedaqoji şərtləri və prinsipləri // Azərbaycan Universiteti, Gənc tədqiqatçıların III respublika elmi-praktik konfransnın materialları. – Bakı: – 13 mart, – 2020. – s.143-145.
4. İbtidai siniflərdə təlimin məzmununa Ulu Öndər Heydər Əliyevin incəsənət haqqında ideyalarının təbliği // Qərbi Kaspi Universiteti, Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda multidissiplinar respublika elmi-praktik konfransının materialları – Bakı: Qərbi Kaspi Universitetinin mətbəəsi. – 1 may, – 2021. – I hissə. – s.172-175.
5. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadə üzrə məktəb təcrübəsinin öyrənilməsi // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2021. №1, – s.141-145.
6. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin nəzəri və praktik məsələləri // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri – 2021. №3, – s.66-72.
7. Ways of applying art forms in the teaching process of primary school students in Azerbaijan // 2nd International Scientific and Practical Internet Conference. "Ways of science development

in modern crisis conditions". Dnipro, Ukraine: – 3-4 june, – 2021. – p.26-28.
8. İbtidai siniflərdə müxtəlif fənlərin təlimi prosesində incəsənət nümunələrindən istifadənin yolları // Azərbaycan Texniki Universitet. Doktorantların və gənc tədqiqatçıların XXIV respublika elmi konfransının materialları. – Bakı: – 23-24 noyabr, – 2021. – s.236-239.
9. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin pedaqoji və psixoloji əsasları // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, – 2022. №4, – s.68-73.
10. İbtidai siniflərdə "Şuşa ili"nə həsr olunmuş tədbirlərin keçirilməsi // GDU. Gənc alimlərin beynəlxalq elmi konfransının materialları – Bakı: – 09-10 dekabr, – 2022. – s.300-303.
11. Системное использование различных образцов искусства в начальных классах Азербайджанской школы // – Новосибирск: МЕЖДУНАРОДНЫЙ ЖУРНАЛ гуманитарных и естественных наук, ООО «Капитал», – 2022. № 9-2(72), – с.82-89.
12. Təlimdənkənar vaxtlarda ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin səmərəli yolları // – Bakı. Pedaqogika, – 2022. №2, – s.8-15.
13. Ways to use samples of national and world art in the learning process of elementary grades // Міністерство освіти і науки України Рівненський державний гуманітарний університет, Кафедра івент-індустрій, культурології та музеєзнавства. АКТУАЛЬНІ ПИТАННЯ КУЛЬТУРОЛОГІЇ: Альманах наукового товариства «Афіна» кафедри івент-ндустрій, культурології та музеєзнавства (збірник матеріалів конференції). проф. В.Г.Виткалова. – Рівне: РДГУ, 2024. Випуск 23, – с.26-30.
14. The development of creative activity of primary school students in the educational process // Youth & market monthly scientific-pedagogical journay. – України: – 2025. – s.176-180.

15. İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin ümumi məsələləri // Azerbaijan University of Languages, International Conference on Current Problems of Language, Education and Pedagogy, dedicated to the 100th anniversary of prof. Nuraddin Kazimov. Liberty Publishing House Water Street Corridor – New York: – 14-15 Aprel, – 2026. – s.143-148.

Dissertasiyanın müdafiəsi 18 dekabr 2026-cı il tarixində saat 16:00 da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi, 41 (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası (https://www.khazar.org) Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 06 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.11.2026

Kağızın formatı: A5

Həcm: 44033 işarə

Tiraj: 100